# Bərdə davamlı inkişaf və tərəqqi yolunda

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş 7 oktyabr 2016-cı il tarixli iclasında dövlət başçısının nitqi ilə əlaqədar 2016-cı ilin doqquz ayında Bərdədə görülmüş işlər və qarşıda duran vəzifələr geniş müzakirə edilmiş, rayon icra hakimiyyətinin başçısı Vidadi İsayevin hesabat məruzəsi dinlənilmiş, müvafiq qərarlar qəbul edilmişdir.**

Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş 7 oktyabr 2016-cı il tarixli iclasında cənab İlham Əliyev 2016-cı ilin dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu, tarixdə bəlkə də ən ağır illərdən biri olduğunu, dünya iqtisadiyyatında böhranlı vəziyyətin davam etdiyini, bu böhrandan bütün ölkələrin əziyyət çəkdiyini, neftin qiymətinin aşağı düşməsinin neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərdiyini, həmçinin neft kontraktlarını icra edən digər ölkələr kontraktları tam icra edə bilmədiyi üzündən həmin ölkələrin iqtisadiyyatına mənfi təsir göstərdiyini qeyd etmişdir.



Nazirlər Kabinetinin 7 oktyabr 2016-cı il tarixli iclasında Prezident İlham Əliyevin nitqi vaxtilə "ağ qızıl" tədarükündə rekord göstəriciləri ilə keçmiş SSRİ-də məşhur olan Bərdənin əməksevər insanlarını, ictimaiyyəti, rayonun sahibkarlarını, fermerlərini daha yüksək nailiyyətlərə imza atmağa ruhlandırmışdır.

Hesabat dövründə Bərdə rayonunda Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası uğurla davam etdirilmişdir. Dövlət Proqramı çərçivəsində görülən işlərin miqyası da genişdir.

Bu sırada Əyricə kənd yolunun, Tərtər çayı üzərindən salınmış körpünü, Qazaxlar kəndində süd emalı müəssisəsinin tikintisini xüsusi olaraq qeyd etmək yerinə düşər.

Bərdənin 1 prospekt və 10 küçəsində (Ü.Hacıbəyov, Babək, S.Vurğun, M.Rəsulzadə, Bakı, Səttarxan, M.Hüseyn, Fizuli, A.Əhmədov və R.Rza) və Heydər Əliyev adına park-bulvarda abadlıq işləri aparılmış, ərazilərə 4217 metr səki daşları və 915 metr bordür düzülmüş, 12079 kv. metr tamet döşənmiş, 4828,6 kubmetr qum-çınqıl verilmiş, 4692 kv. metr əraziyə çınqıl verilmiş, 120 kv. metr istinad divarları tikilmiş, 1367 kv. metr asfalt-beton qoyulmuş, 540 kv. metr divarlar rənglənmişdir.



Yaşıllıq işlərinə diqqət daha böyükdür.

Küçə və meydanlarda, yolların kənarlarında 16 mindən çox ağac və 28 mindən çox gül kolları əkilmişdir.

Hesabat dövründə rayonda 177,4 km müxtəlif diametrli qaz xətləri çəkilərək 12 kənd (Xəsili, Qazaxlar, Köbərkənd, Mollaisalar, Həsənli, Qaratəpə, Mehdili, Cumalar, Qazıqurdalı, Dəymədağıldı, Lək və Hacallı) qazlaşdırılmış, 3077 abonentə təbii qaz verilmişdir. Hazırda 3 kənd (Lənbəran, Otuzikilər və Mollalı) qazlaşdırılır və 5 kəndin qazlaşdırılması üçün (Hacıbəyli, Hacıəhmədli, Kafarlı, Məşədiibişli və Bayramlı) layihə-smeta sənədləri hazırlanır.

Kəndlərdə yeni yaşayış evlərinin fasiləsiz elektrik təchizatı istiqamətində ardıcıl işlər görülür. 3 kəndin (Əmirli, Dəymədağıldı, Kərimbəyli və Əliyanlı) və Güloğlular kəndinin yeni yaşayış məhəlləsinin elektrik şəbəkələri yenidən qurulmuş, 8 kəndin (Tumaslı, Cumalar, Lənbəran, Əyricə, Kələntərli, Qasımbəyli, Mollalı və Şirvanlı) elektrik şəbəkələri yenilənir.

Bərdənin kəndlərində əhalinin içməli su ilə təmin edilməsi rayon rəhbərliyinin daim diqqət mərkəzində olan vacib məsələlərdəndir. 4 kənddə (Əliyanlı, Otuzikilər, Lək və Lənbəran) içməli su üçün artezian quyusu artıq qazılmışdır. 9 kənddə (Xanərəb, Əmirli, Soğanverdilər, Piyadalar, Güloğlular, İkinci Hacallı, Qayalı, Mirzalıbəyli və Uğurbəyli) suvarma üçün subartezian quyuları fəaliyyətdədir, 9 kənddə subartezian quyusunun vurulması üçün iş aparılır.

Perspektivdə rayonun sosial-iqtisadi inkişafı üçün zəruri olan obyektlərin, o cümlədən, sənaye məhəlləsinin yaradılması, Nizami parkının, beşulduzlu mehmanxananın, 5 ümumtəhsil məktəbinin, 1 saylı uşaq musiqi məktəbinin, Tarix-diyarşünaslıq muzeyinin, 4 körpələr evi-uşaq bağçasının, qəzalı vəziyyətdə olan kommunal yaşayış binalarının sakinləri üçün yeni yaşayış binasının tikintisi nəzərdə tutulmuşdur. 8 ümumtəhsil məktəbinin, 2 körpələr evi-uşaq bağçasının əsaslı təmiri, Kələntərli-Körpüsındıran kəndlərarası yolun yenidən qurulması və asfaltlanması, Hacallı kəndinin su-kanalizasiya şəbəkəsinin tikintisi, 8 kənddə modul tipli sutəmizləyici qurğuların yaradılması, poliklinikanın əsaslı təmiri, ən önəmlisi isə Bərdə şəhərinin ətraf 9 kəndlə birlikdə su-kanalizasiya şəbəkəsinin tikilməsi diqqəti çəkir.

Ümumiyyətlə, 2016-cı ilin 9 ayı Bərdə rayonu üçün uğurlu olmuş, makroiqtisadi göstəricilərin sabitliyi təmin edilmişdir.

9 ay ərzində 266,1 milyon manatlıq ümumi məhsul, o cümlədən 9,3 milyon manatlıq sənaye, 126,7 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 26,9 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, 4,9 milyon manatlıq nəqliyyat xidməti, 0,8 milyon manatlıq informasiya və rabitə, 97,5 milyon manatlıq ticarət xidmətləri göstərilmişdir.

2015-ci ilin 9 ayına nisbətən sənaye məhsulu istehsalı 6,5 faiz, kənd təsərrüfatı məhsulu buraxılışının həcmi 3,2 faiz, nəqliyyat xidməti 3,3 faiz, ticarət xidmətləri 17,1 faiz artmışdır.

İlin sonuna doğru makroiqtisadi göstəricilərdə daha böyük artım gözlənilir.

Sahibkarlığın inkişafı ilə bağlı görülən işlərdən danışarkən qeyd edilmişdir ki, 9 ay ərzində rayonda sahibkarlığın yüksək templərlə inkişaf etdirilməsi mühüm nailiyyətdir.

Dövlət tərəfindən göstərilən diqqət və qayğı sayəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı keçən ilin müvafiq dövrünə nisbətən 5,1 faiz artaraq, 12,6 min nəfərə çatmışdır.

İri fermer təsərrüfatlarının yaradılması, sənaye məhəllələrinin təşkil edilməsi Bərdədə prioritet istiqamətdir.

Sahibkarlığın inkişaf etdirilməsi üçün SKMF-nin müvəkkil olduğu kredit təşkilatları tərəfindən 9 ay ərzində 210 sahibkara 1932,4 min manat güzəştli kreditlər verilərək 195 yeni iş yerinin yaradılmasına nail olunmuşdur. Proqramın əvvəlindən 2754 sahibkara 71,3 mln. manat güzəştli kreditlər təqdim edilmiş, nəticə etibarilə, 5062 yeni iş yerləri yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2014-cü il tarixli 961 nömrəli Sərəncamı əsasında qazılmış 20 subartezian və artezian quyuları istifadəyə verilmişdir (Cəyirli, Şirvanlı, Soğanverdilər, Qazıqurdalı, Hüseynbəyli, Əliyanlı, Bala Qacar, Mehdixanlı, Qaradəmirçi və Şahvəlilər kəndlərinin hər birində 1 ədəd, Əmirli və Xanərəb kəndlərinin hər birində 2 ədəd, Kətəlparaq kəndində 3 ədəd subartezian, Mirzəcəfərli, Anağalı və Samux kəndlərinin hər birində 1 ədəd artezian quyusu).

Əkin sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün 9 ayda suvarma kanalları 805 min kubmetr, açıq dren kanalları 372,6 min kubmetr lildən təmizlənmiş, 144,3 min kubmetr torpaq işi görülmüş, 1,8 km beton kanallar, 2 ədəd dizel mühərriki, 5 ədəd nasos stansiyası, 4 ədəd elektrik mühərriki, 45 ədəd subartezian quyusu əsaslı təmir edilmiş, Tərtər çayının məcrasında 67 min kubmetr tənzimləmə işləri aparılmışdır. Xanərəb, Əmirli, Soğanverdilər, Piyadalar, Güloğlular, İkinci Hacallı, Qayalı, Mirzalıbəyli və Uğurbəyli kəndlərinin hər birində 1 ədəd olmaqla suvarma üçün 9 ədəd subartezian quyuları qazılmışdır.

Cari ildə 13.7 min hektar taxıl sahəsi (qarğıdalısız) biçilmiş, hər hektardan 39,3 sentner buğda və 32,2 sentner arpa olmaqla 51,4 min ton taxıl, o cümlədən 40,9 min ton buğda, 10,5 min ton arpa istehsal edilmişdir. Keçən ilə nisbətən buğda istehsalı 3,6 min ton artmışdır.

Quru dənə çevirməklə 167 hektar qarğıdalı sahəsindən 1252 ton məhsul toplanmış, hər hektardan 75 sentner dən götürülmüşdür.

Qarğıdalı dəni nəzərə alınmaqla rayonda 52,6 min ton taxıl istehsal edilmişdir.

Mövsümün əvvəlindən tarlalardan 1980 ton kartof, 37711 ton müxtəlif növ tərəvəz, 24919 ton bostan məhsulları, 7001 ton meyvə toplanmışdır.



680 hektar şəkər çuğunduru sahələrinin 73,5 faizində məhsul yığılmış, hər hektardan 380 sentner olmaqla, 19 min ton məhsul götürülmüşdür.

Məhsul yığımı bu gün də davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi əsasında texniki bitkilərin əkininə önəm verilmiş, rayonda 3003,3 hektar sahədə pambıq əkilmiş, tarlalarda bol məhsul yetişdirilmişdir. İndiyədək 2,8 min tondan çox pambıq istehsal edilmiş, pambıq yığımı sürətlə davam edir.

Gələn il rayonda 10 min hektar sahədə pambıq əkilməsi üçün tədbirlər görülmüş, pambıq əkiləcək sahələr müəyyənləşdirilmiş, əkinlərin suvarma suyu ilə təmini üçün tədbirlər həyata keçirilir.

Pambıq istehsalının artırılması üçün subsidiyaların verilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi Bərdə pambıqçıları tərəfindən rəğbətlə qarşılanmışdır.

Heyvandarlıq Bərdənin kənd təsərrüfatında ən vacib sahələrdəndir.

9 ayda rayona 294 baş ətlik-südlük və 219 baş südlük istiqamətli cins heyvan alınıb gətirilmişdir.

109525 baş iribuynuzlu, 128564 baş xırdabuynuzlu və 1359 baş təkdırnaqlı heyvanlar qarayara, 168800 baş iribuynuzlu və 104499 baş xırdabuynuzlu heyvanlar dabaq, 104729 baş iribuynuzlu heyvanlar dermatit, 992118 baş quşlar taun, 135800 baş xırdabuynuzlu heyvanlar çiçək, 67157 baş xırdabuynuzlu heyvanlar brüselyoz, 12952 baş iribuynuzlu heyvanlar leptospiroz xəstəliyi əleyhinə, 7864 baş itlər quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir.

27210 baş iribuynuzlu və 7898 baş xırdabuynuzlu heyvanlardan qan nümunələri götürülərək brüselyoz xəstəliyinə görə, 1028 baş təkdırnaqlı manqo xəstəliyinə, 9379 baş iribuynuzlu heyvan vərəm xəstəliyinə görə allergik müayinə edilmişdir. Müayinələr zamanı brüselyoz xəstəliyinə yoluxmuş 94 baş iri və 99 baş xırdabuynuzlu heyvanlar təsərrüfatlardan çıxarılmışdır.

9 ayda 5967 baş iribuynuzlu heyvanlar süni mayalandırılmış, bu heyvanlardan 2244 baş sağlam bala alınmışdır.

"Aqrolizinq" yolu ilə rayona gətirilmiş 402 baş damazlıq düyələr nəzarətə götürülmüş və onlarda müayinə və profilaktiki peyvənd tədbirləri aparılır.

Hesabat dövründə rayonda qaramalın baş sayı 5,5 faiz artaraq, 94745 başa, qoyun və keçilərin sayı 2,8 faiz artaraq, 142713 başa çatmışdır. Diri çəkidə 14 min ton ət, 49,2 min ton süd, 468 ton yun, 25,4 milyon ədəd yumurta istehsal edilmişdir. 2015-ci ilin 9 ayına nisbətən ət istehsalı 15,9 faiz, süd istehsalı 3,5 faiz, yun istehsalı 3,8 faiz, yumurta istehsalı 2,8 faiz artmışdır.

9 ay ərzində müraciətlərin 50,7 faizi vətəndaşlardan, 32,3 faizi Azərbaycan Respublikasının Prezident Administrasiyasından, 3,1 faizi Nazirlər Kabinetindən, 2,0 faizi Milli Məclisdən, 11,7 faizi mərkəzi orqanlardan daxil olmuşdur.

Daxil olan vətəndaş müraciətlərinin 4,8 faizi nəzarətə götürülərək baxılmışdır.

Rayon icra hakimiyyəti başçısı aparatında 5348 nəfər, o cümlədən rayon İcra Hakimiyyətinin başçısı tərəfindən 1715 nəfər qəbul edilmişdir. Rayon İcra Hakimiyyəti başçısının yerlərdə 31 qəbul-görüşü keçirilmiş, bu görüşlərdə 8670 nəfər sakinin iştirakı təmin edilmiş, 335 nəfərin müraciəti dinlənilmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən rayon icra hakimiyyəti başçısı tərəfindən aparatda və yerlərdə qəbul edilən vətəndaşların sayı artmışdır. Vətəndaş müraciətlərinin çox böyük əksəriyyəti yerindəcə həll olunmuşdur.

İnzibati ərazi dairələri üzrə nümayəndəliklərdə, bələdiyyələrdə, idarə, müəssisə və təşkilatlarda vətəndaşların qəbulu, onların təklif, ərizə və şikayətlərinə baxılması işinin daha da təkmilləşdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalı, müraciət edən hər bir vətəndaşın diqqətlə dinlənilməsi və müraciətin baxılması nəticəsi barədə vətəndaşa ətraflı məlumatın verilməsi daim təmin edilməlidir.

Yekunda bütün bərdəlilər adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətdə bildirilir ki, Bərdədə bütün qüvvələr rayonun özünümaliyyələşməyə keçməsinə, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Dövlət Proqramı"nın uğurla yerinə yetirilməsinə, sakinlərin daha rahat və firavan yaşamasına səfərbər ediləcək, rayon əhalisi ölkədə aparılan dinamik işlərin önündə gedəcəkdir.

**Maarif RZAYEV,**
**"Respublika".**

